# Koronavirusla bağlı vəziyyət ciddi nəzarət altındadır

## Prezident İlham Əliyev: "Hər bir xırdalığa qədər düşünülmüş addımlar atılır, bunun da məqsədi Azərbaycan vətəndaşlarını bu xəstəlikdən qorumaqdır"

**Ötən ilin dekabr ayında ilk dəfə olaraq Çinin Yuhan şəhərində naməlum mənşəli pnevmoniyanın törədicisi kimi yeni 2019-nCoV koronavirusu aşkar edilib və onun törətdiyi xəstəliyin qeydiyyatına başlanılıb. 2020-ci ilin yanvar ayında xəstəlik Çində daha da alovlanıb.**

CoVİD-19 adı verilən koronavirus artıq dünyanın 60-a yaxın ölkəsində müşahidə edilib. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) yaydığı son məlumata görə, dünyada gün ərzində koronavirusa 1922 yeni yoluxma halı qeydə alınıb ki, onlardan 1792-si Çində baş verib. İndiyə qədər isə 90 870 yoluxma hadisəsi təsdiqlənib. Bunun 80 304-ü Çinin, qalan 10 566-sı digər ölkələrin payına düşür. ÜST-ün məlumatına görə, yeni növ koronavirusdan ölənlərin sayı Çin ərazisində 2946, dünyanın başqa dövlətlərində 166 nəfərə yüksəlib. ÜST bu virusla mübarizə tədbirlərinə başlayıb. Dünya Bankı (DB) da koronavirus epidemiyasına qarşı mübarizə üçün ilkin olaraq 12 milyard dollar ayırıb. Belə ki, DB inkişaf etməkdə olan ölkələrə insanların epidemiyadan qorunması üçün səhiyyə sisteminin, xəstəliklərə nəzarətin, ictimai səhiyyə sahəsində tədbirlərin və iqtisadiyyata təsirin azaldılması məqsədilə özəl sektorla əməkdaşlığın gücləndirilməsinə kömək edəcək. Yardım DB-yə daxil olan təşkilatların - Beynəlxalq İnkişaf Assosiasiyasının, Beynəlxalq Yenidənqurma və İnkişaf Bankının, Beynəlxalq Maliyyə Korporasiyasının xətti ilə təqdim olunacaq.

### ÖLKƏYƏ GİRİŞ-ÇIXIŞ CİDDİ NƏZARƏTƏ GÖTÜRÜLÜB

Azərbaycan da dünyanın bir parçası olduğundan xaricdə özünü göstərən virusun ölkəmizdə yayılmaması, vətəndaşların bu xəstəliyə yoluxmaması üçün müvafiq tədbirlər görülüb. Belə ki, Nazirlər Kabinetinin sərəncamı ilə 2020-ci il 30 yanvar tarixində "Azərbaycan Respublikasında yeni koronavirus xəstəliyinin yayılmasının qarşısının alınmasına dair Fəaliyyət Planı" təsdiq edilib və nəzərdə tutulmuş tədbirlər həyata keçirilib. Qeyd olunan xəstəliyin yayılma coğrafiyasının geniş miqyası nəzərə alınaraq, Nazirlər Kabineti tərəfindən daha geniş əhatəli Tədbirlər Planı təsdiqlənib. Azərbaycanda beynəlxalq standartlara cavab verən biotəhlükəsizlik laboratoriyaları tam gücü ilə paytaxtda, eləcə də regionlarda fəaliyyət göstərməyə başlayıb. Hansı ki, bu laboratoriyalar bir sıra xüsusi təhlükəli xəstəliklərin molekulyar diaqnostikası üzrə ixtisaslaşıb. Eyni zamanda koronavirus (COVİD-19) infeksiyasının yüksək həssaslıqla PZR metodu ilə təyini qısa zaman ərzində həyata keçirilib. Dövlətin qurduğu bu laboratoriyalar stasionar, səyyar və mobil tiplidir. Bu laboratoriyalarda həyata keçirilən diaqnostik metodlar, həmçinin koronavirusun təyini ÜST tərəfindən yüksək qiymətləndirilib. Bunlarla yanaşı, Məhz Prezident İlham Əliyevin göstərişi ilə koronavirus xəstəliyinin Azərbaycan ərazisində yarada biləcəyi təhlükənin qarşısının alınması, profilaktik və təxirəsalınmaz tədbirlərin operativ həyata keçirilməsi məqsədilə Nazirlər Kabinetinin yanında aidiyyəti dövlət orqanlarının və qurumlarının rəhbər şəxslərindən ibarət qərargah yaradılıb. Qabaqlayıcı tədbirlərin görülməsi və Azərbaycan Respublikasının bütün ərazilərində monitorinqin aparılması üçün aidiyyəti sahə mütəxəssislərindən ibarət



ekspert qrupları təşkil olunub. Ölkə başçısının digər göstərişi ilə lazımi tədbirlərin görülməsi işinin daha sürətlə aparılması üçün əlavə 10 milyon manat vəsait ayrılıb. Ümumiyyətlə, ölkəyə giriş-çıxış ciddi nəzarətə götürülüb.

### UŞAQLARI, YENİYETMƏLƏRİ XƏSTƏLİKDƏN QORUMAQ

Prezident İlham Əliyevin martın 3-də Goranboy Rayon Mərkəzi Xəstəxanasının açılışında xatırlatdığı kimi, Azərbaycanda koronavirus infeksiyası ilə bağlı vəziyyət ciddi nəzarət altındadır. Ölkə rəhbərinin sözlərinə görə, hətta İranda qalan Azərbaycan vətəndaşlarının təxliyə edilməsi üçün də xüsusi tədbirlər həyata keçirilir. Onların həm quru sərhəddən, həm hava nəqliyyatı vasitəsilə Azərbaycana gətirilməsi təmin edilir. Prezident bildirib ki, Azərbaycanda koronovirusun yayılmasının qarşısını almaq üçün xaricdən ölkəmizə gətirilən vətəndaşlarımız lazım olan müddət ərzində karantində qalmalıdırlar: "Eyni zamanda, məktəblərin, ali məktəblərin, uşaq bağçalarının müvəqqəti olaraq bağlanması haqqında müvafiq göstərişlər verilibdir. Bunun da məqsədi uşaqları, yeniyetmələri o xəstəlikdən qorumaqdır. Yəni, bütün lazımi tədbirlər görülür. Azərbaycanda bu xəstəliyin bu günə olan məlumata görə, yayılması ehtimalı o qədər də yüksək deyil. Ancaq deyə bilərəm ki, gündə bir neçə dəfə bu məsələ ilə bağlı ölkə ərazisində monitorinqlər aparılır, bütün sərhəd-keçid məntəqələrində xüsusi cihazlar quraşdırılıbdır. Yəni, hər bir xırdalığa qədər düşünülmüş addımlar atılır, bunun da məqsədi Azərbaycan vətəndaşlarını bu xəstəlikdən qorumaqdır. Bu günə qədər bizim bütün addımlarımız uğurla nəticələnib. Biz daim Ümumdünya Səhiyyə Təşkilatı ilə təmasdayıq və xəstəliyi aşkar etmək üçün testlərin ölkəmizə gətirilməsi ilə bağlı işlər aparılır, bu məsələ öz həllini tapır".

### NARAHATLIĞA HEÇ BİR CİDDİ ƏSAS YOXDUR

Prezident İlham Əliyev Azərbaycan ictimaiyyətini bir daha əmin edib ki, hökumət bütün lazımi tədbirləri görür. Onun sözlərinə görə, maddi-texniki bazası gücləndirilən Azərbaycan səhiyyə sistemi gözlənilməz hadisələrə də hazırdır: "Bu günə olan mənzərəyə görə, narahatlığa heç bir ciddi əsas yoxdur. Karantində qalan vətəndaşların mütləq əksəriyyətində hələ ki, heç bir xəstəlik əlaməti aşkarlanmayıb. Əgər onların sağlamlığı normal olarsa, lazımi müddətdən sonra evlərinə buraxılacaqlar. Hesab edirəm ki, bu günə qədər bu məlumat kifayətdir. Eyni zamanda, göstəriş verilib ki, bu məsələ ilə bilavasitə məşğul olan bütün səhiyyə orqanlarının nümayəndələri - Səhiyyə Nazirliyi və İcbari Tibbi Sığorta Agentliyi müntəzəm olaraq vətəndaşları məlumatlandırsınlar".

### İCTİMAİYYƏT QARŞISINDA ÇOX MÜKƏMMƏL HESABAT

Mövzu ilə bağlı **Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədr müavini Aydın Mirzəzadə** deyib ki, koronavirus təhlükəsi ilə əlaqədar heç bir dövlət başçısı səfərlər etmədiyi halda Prezident İlham Əliyevin bölgələrə səfərini təxirə salmaması onun daim xalqının yanında olduğunun göstəricisidir. Deputatın fikrincə, bu səfər ortaya çıxan problemlərlə bağlı dövlətin çox ciddi tədbirlər gördüyünü bir daha nümayiş etdirir. Millət vəkili söyləyib ki, dövlət başçısı dünyanı narahat edən koronavirus xəstəliyinə qarşı Azərbaycanda görülən işlər barəsində təkcə Goranboy rayonuna deyil, ümumən Azərbaycan ictimaiyyəti qarşısında çox mükəmməl bir hesabat verib: "Göründüyü kimi, Azərbaycanda atılan addımlar ölkəmizdə bu xəstəliyin təhlükə yaratmasının və geniş yayılmasının qarşısını aldı. Zamanında sərhəd-keçid məntəqələrinin bağlanması, Azərbaycana giriş və çıxışın nəzarət altına götürülməsi, bu xəstəliklə, eləcə də onun yaranma səbəbləri ilə bağlı dünya təcrübəsinin, ilk növbədə isə Çin təcrübəsinin öyrənilməsi bu xəstəliyin Azərbaycanda geniş yayılmasının qarşısını aldı. Həmçinin müvafiq avadanlıqların alınması, dövlət başçısının bu gün əhalinin diqqət etdiyi maskalarla bağlı öz fikrini bildirməsi bir daha göstərdi ki, Prezident istənilən ciddi məsələni daim nəzarətdə saxlayır və bunun qarşısının alınması üçün addımlar atır".

### İNSANLARIN DÖVLƏTƏ OLAN İNAMI ARTIR

A.Mirzəzadə əlavə edib ki, Prezident İlham Əliyevin bölgələrə səfər etməsi, açıq şəkildə insanlarla görüşməsi ölkə başçısının şəxsi keyfiyyətini, cəsarətini, hazırlığını, hər bir vəziyyəti sadə vətəndaşı ilə bölüşmək əzmini göstərir: "Məhz buna görə Prezidentin cəmiyyətdə nüfuzu kifayət qədər yüksəkdir, onun apardığı daxili və xarici siyasət sadə vətəndaşlar, seçicilər tərəfindən dəstəklənir. Dövlət başçısının dünənki səfəri bir daha göstərdi ki, Azərbaycan dövləti daim vətəndaşının yanındadır. Azərbaycan dövləti apardığı siyasətlə dövlətin nüfuzunu artırır, insanların dövlətə olan inamını artırır. Bu, belədir və bundan sonra da belə olacaq".

### TƏŞVİŞ, STRESS İMMUN SİSTEMİNİ ZƏİFLƏDƏN FAKTORLARDIR

**Milli Məclisin Səhiyyə komitəsinin sədr müavini Musa Quliyev** də koronavirus epidemiyasının bu gün bütün dünyanı narahat edən ciddi bir problem olduğunu dilə gətirib. Qeyd edib ki, Azərbaycanda dövlət tərəfindən ən yüksək səviyyədə koronavirusla mübarizə tədbirləri həyata keçirilir. M.Quliyev Azərbaycanda koronavirusla mübarizə üçün kifayət qədər dərman ehtiyatlarının olduğunu, klinikaların buna hazır vəziyyətə gətirildiklərini vurğulayıb. Onun qənaətincə, yaxın zamanlarda istilərin düşməsi ilə bu problem tamamilə aradan qalxacaq: "Bu məsələ Prezident İlham Əliyevin nəzarəti altındadır. Bilirsiniz ki, cənab Prezidentin tapşırığı ilə Nazirlər Kabinetinin yanında koronavirusla mübarizə ilə bağlı xüsusi qərargah yaradılıb və bu qərargah da xüsusi vəziyyət rejimində çalışır. Vətəndaşlara demək istərdim ki, heç kim təşvişə düşməsin, amma hər kəs ehtiyat tədbirini görsün. Mən bir həkim kimi deyirəm ki, təşviş, stress insanın ümumi immun sistemini zəiflədən faktorlardır. Ümumiyyətlə, stress keçirmək və təşvişə düşmək lazım deyil, çünki bu gün Azərbaycanda koronavirus yayılmayıb. Koronavirus aşkar olunan şəxslər də ciddi nəzarət altındadır və müalicələr qaydasında gedir".

**Millət vəkili Tahir Rzayev** deyib ki, Prezident İlham Əliyev regionlara səfər etməklə bütün fövqəladə hallarda əhalinin yanında olduğunu bir daha sübut etdi. Onun sözlərinə görə, Prezident həmişə xalqla ünsiyyətdə olmağa, onların problemlərinin həllinə çalışır: "Bu, cənab Prezidentin atdığı ilk addım deyil. Dövlət başçısı fövqəladə hallar baş verəndə dərhal insanların yanında olur, onlara təskinlik verir. Bu gün dünyada koronavirusun yayıldığı bir vaxtda da Prezident İlham Əliyev regionlara səfər edir, xalqla ünsiyyətdə olur. Bilirsiniz ki, bu virus yayılandan sonra ölkələrdə bütün tədbirlər təxirə salınıb, dövlət başçıları bölgələrə səfərlərini dayandırıb. Amma bu hadisə Prezident İlham Əliyevin işinə heç bir təsir etmədi. Cənab Prezident bölgələrə səfər etdi, insanları arxayın etdi ki, Azərbaycanda bu virusun qarşısının alınması üçün bütün tədbirlər görülür, vəziyyət yüksək səviyyədə diqqətdə saxlanılır. Dövlət başçısı bu addımı ilə bir daha bütün dünyaya nümunə göstərdi, xalqının yanında olduğunu nümayiş etdirdi. Prezident İlham Əliyevin bölgələrə səfər etməsi, insanların qayğısına qalması, onların problemləri ilə maraqlanması bir daha sübut etdi ki, o hər bir vətəndaşın prezidentidir və hər bir Azərbaycan vətəndaşının problemi onun öz problemidir. Dövlət başçısı əmin etdi ki, koronavirusla mübarizə yüksək səviyyədə həyata keçirilir və insanların narahatçılığına əsas yoxdur".

T.Rzayev deyib ki, Prezident İlham Əliyevin bölgələrə səfər edərək əhali ilə görüşməsi insanlarda inam yaratdı: "Koronavirusun yayılmasının qarşısını almaq üçün Azərbaycanda yüksək səviyyəli tədbirlər həyata keçirildiyi barədə əhali məlumatlandırıldı. Koronavirusun yayılmasının qarşısının alınması, əhalinin sağlamlığının mühafizəsi istiqamətində bütün lazımi tədbirlər görülür. Ölkədə əhalinin narahatlığı üçün heç bir ciddi əsas yoxdur. Azərbaycanda xəstəliyin yayılmaması üçün bütün məsələlər hər bir xırdalığa qədər düşünülür və müvafiq addımlar atılır".

**Rufik İSMAYILOV**